MUSİQİ DÜNYASI 2/87 2021

# BMA-nin 100 İLLİK YUBİLEYİ: BƏSTƏKARLIQ KAFEDRASININ TARİXİ SƏHİFƏLƏRİ...

Günay MƏHYƏDDİNLİ

*Məqalə bu il 100 illik yubileyini qeyd edən Bakı Musiqi Akademiyasının tarixinə həsr edilmişdir. Burada Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasının tarixi mərhələlərinə ekskurs edilir, bəstəkarlıq kafedrasının yaranma tarixinin bəzi məqamları vurğulanır, çağdaş Azərbaycan bəstəkarlıq məktəbinin banisi Qara Qarayev və digər vacib fiqurların rolu qeyd olunur.*

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, bəstəkar, konservatoriya, Qara Qarayev, bəstəkarlıq, məktəb*

Bu il Şərqin ilk musiqi təhsil ocağı olan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik möhtəşəm yubileyinin qeyd olunacağı yəqin nəin ki, peşəkar musiqiçilərə, o cümlədən, digər peşə nümayəndələrinə, musiqi həvəskarlarına məlumdur.

Yubiley Azərbaycanda musiqi təhsilinin qurulması və təkmilləşdirilməsində səyləri, uğurları, habelə, xatirələri dərketmə anıdır. Üzeyir bəydən əmanət qalmış və artıq bir əsrdir ki, fəaliyyətini davam etdirən bu ocağın tarixi səhifələrini vərəqlədikdə qürur hissi keçirməmək mümkün deyildir.

Azərbaycan Dövlət Konservatoriyasının meydana gəldiyi dövrün (1921) mövcud mürəkkəb sosial-ictimai, tarixi-siyasi məsələləri fonunda belə bir əhəmiyyətli qurumun yaradılmasının mütləq təşəbbüskarı olmaq, daha sonralar isə birbaşa idarəçisi kimi çıxış etmək heç də asan deyildi. Həmin dövrdə yaradılan digər təhsil ocaqları kimi konservatoriyanın da meydana gəlməsi və fəaliyyətində kommunist ideologiyalarının təsiri, zaman-zaman göstərilmiş ciddi təpkilər isə şübhəsiz ki, vacib qeyd olunası məqamlardandır. Lakin əsrin əvvəllərində bütün passionarlığı ilə Üzeyir bəy şəxsiyyəti əzmlə nəin ki, musiqi mədəniyyətimizin inkişafında, habelə, maarifçilik ideyalarının təbliğ olunmasında sütunlardan biri oldu.

XX əsrin əvvəllərində Bakı öz yüksəliş dövrünə qədəm qoymuşdu. Azərbaycan cəmiyyətinin çoxmillətli quruluşu bir-birinə qarışan bir çox mədəni vektorları özündə birləşdirməkdə idi. Əlbəttə, Bakıda həmin dövrdə baş verən tarixi-ictimai-sosial dəyişikliklər mədəni-mənəvi istiqamətə də ciddi şəkildə təsir edirdi. Bu, siyasi və iqtisadi, qeyd edildiyi kimi mənəvi sferada və millətlərarası münasibətlərdə yeni strukturların formalaşması dövrü idi.

Məhz belə zaman kəsiyində Üzeyir bəyin respublikada ali musiqi məktəbinin, Azərbaycan Konservatoriyasının yaradılmasının zəruriliyi barədə Xalq Maarifi Komissarlığına məruzə ilə müraciəti və bu mövzuda silsilə məqalələrlə çıxışlar çətinliklə də olsa öz nəticəsini verdi. Şərqdə ilk musiqi təhsil ocağı yarandı...

Yeni yaradılmış ali məktəb öncə mövcud olan bir sıra vacib məsələlərin həllini qarşıya qoymuşdu. Məsələn, peşəkar kadrların buraya tədris üçün dəvət olunması, eyni zamanda, tələbələrin də musiqi təhsilinə cəlb olunması vacib məsələlərdən idi. Təsadüfi deyil ki, ötən əsrin əvvəllərində, konservatoriyanın Şərqin ilk musiqi təhsil ocağı kimi özünü təsdiqləməsində görkəmli şəxsiyyətlərin bütöv bir zümrəsi mühüm rol oynamışdı. Azərbaycanda musiqi təhsili sisteminin formalaşması və inkişafı tarixində fərqli xalqlara mənsub peşəkar musiqiçilərin çoxillik əməyi və səyi birbaşa Üzeyir bəyin dəvəti və rəhbərliyi altında həyata keçirilirdi.

Belə bir addımın atılması isə təsadüfi deyildi. Bir tərəfdən peşəkar kadrların konservatoriyaya dəvət olunması və bilavasitə yeni kafedra, o cümlədən, bölmələrin yaradılması, habelə, savadlı kadrlarla silahlanmasını əsas tutan bəstəkar, digər tərəfdən ciddi şəkildə milli musiqinin taleyi haqqda düşünür və öz fikirlərini məqalə, məruzələrdə ifadə edir, Avropa musiqi nəzəriyyələrinin Azərbaycan musiqisinə tətbiq edilməsini təklif edirdi. Əgər nəzərə alsaq ki, həmin zaman kəsiyində ümumiyyətlə regionda yerləşən qonşu dövlətlərin mədəniyyətində "milli" və "Avropa" ənənələrinə yanaşma birmənalı deyildi, bu baxımdan xüsusilə Azərbaycan musiqi mədəniyyətində həmin tip ümumiləşmənin əksini tapa bilməsi diqqətəlayiq hadisə idi. Əsrin əvvəllərindən müxtəlif ictimai-siyasi "idarəçilik" ideologiyalarının təsiri altında öz inkişaf yolunu keçən Azərbaycan musiqi mədəniyyəti əsrin sonuna doğru tamamilə fərqli panorama ilə müşahidə olunacaqdı.

Yuxarıda qeyd edildiyi kimi, konservatoriyanın yaradıldığı ilk dövrdən etibarən ciddi səylə buraya peşəkar musiqiçilər cəlb olunurdu. Məhz belə bir mühitin təşkil olunması Qərb və Şərq musiqi mədəniyyətinə dərindən bələd olan azərbaycanlı mütəxəssislərin yetişdirilməsinə yönəldilmişdi. Bu dövrdə konservatoriyada SSRİ-nin müxtəlif şəhərlərindən dəvət olunmuş pedaqoqlar - İ. Aysberq, L.Yablonko, 20-30-cu illərdə L.Rostropoviç, bəstəkar və nəzəriyyəçi L.Rudolf, pianoçu G.Şaroyev, qoboy ifaçısı V.Knyazkov, valtorna ifaçısı və nəzəriyyəçi S.Berolski və başqaları çalışırdı. Sonralar bu tərkibə pianoçu M. Brenner, musiqişünas-nəzəriyyəçi N.Çumakov və s. alimlər qoşulmuşdu.

Bu alim-mütəxəssislərin əvəzsiz əməyi nəticəsində Moskva konservatoriyasının təhsil-tədris

strukturuna uyğun olaraq kafedra və bölmələr yaradılır, müxtəlif ixtisaslaşmalarda musiqiçilər yetişdirilirdi. Əlbəttə, bu mənada məqalənin də həsr olunduğu bəstəkarlıq kafedrasının meydana gəlməsi və inkişaf yolunu xüsusilə vurğulamaq gərəkdir. Belə ki, 20-ci illərdən ADK-nın tərkibində fəaliyyət göstərən nəzəriyyə bölməsinin adı bir müddət sonra dəyişdirilərək nəzəri-bəstəkarlıqla[1] əvəz olundu. 30-cu illərin əvvəlində isə o, artıq nəzəri-bəstəkarlıq kafedrasına çevrildi. Qeyd etmək lazımdır ki, 30-cu illər həm də S.Bretanistkinin (simli alətlər kafedrası), V.Tovstolujskinin (ixtisas fortepiano), Q. Popovitskinin (nəfəsli alətlər) və nəhayət, Üzeyir Hacıbəylinin rəhbərlik etdiyi "Azərbaycan musiqisinin əsasları"[2] kimi aparıcı kafedraların yaranması ilə əlamətdar idi.

Yenicə yaranmış nəzəri-bəstəkarlıq kafedrasının isə ilk rəhbəri 1932-ci ildə Saratov Konservatoriyasından dəvət olunmuş görkəmli nəzəriyyəçi və bəstəkar, Moskva Konservatoriyasının məzunu, S.Taneyev və Q.Konyusun tələbəsi olmuş Leopold Rudolf oldu. Yüksək erudisiyaya və pedaqoji bacarığa malik L.Rudolf 1932-38-ci illərdə nəzəri-bəstəkarlıq kafedrasına rəhbərlik edir. 1936-cı ildən ADK-da nəzəriyyə fənnlərini onun tələbəsi dosent N.Çumakov aparmağa başlayır. Çumakovun pedaqoji prinsipləri nəzəri-bəstəkarlıq fakültəsinin gələcək işinin əsasına çevrilir. Məhz həmin dövrdə Üzeyir Hacıbəyli ilə yanaşı çalışan B.Zeydman, P.Ryazanov və s. kimi təcrübəli pedaqoqlar tərəfindən "hörülmüş" möhkəm təməl sonralar Qara Qarayev tərəfindən əsası qoyulacaq müasir bəstəkarlıq məktəbinin yaradılması ilə məntiqi nəticəsini tapır. Bu baxımdan adı qeyd olunmuş nəzəriyyəçi və bəstəkarların gələcək bəstəkarlar nəslinin yetişdirilməsində müstəsna əməyi qeyd olunmaya bilməz. Xüsusilə M.Şteynberq məktəbinin görkəmli nümayəndəsi olmuş Boris Zeydman Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış, o cümlədən, bəstəkarlar nəslinin hərtərəfli formalaşmasında yaxından iştirak etmişdir. Məsələn, həmin dövrdə Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Fikrət Əmirov və s. kimi gənc bəstəkarların ilk əlamətdar əsərləri meydana çıxır. 40-cı illərin sonunda Moskva Dövlət Konservatoriyasını XX əsr musiqi mədəniyyətində böyük ustadlardan biri olmuş D.Şostakoviçin sinfi üzrə bitirən gənc bəstəkarlar Qara Qarayev və Cövdət Hacıyev bəstəkarlıq kafedrasında dərs deməyə başlayırlar.

Məhz Qara Qarayev kimi müstəsna fiqurun mövcudluğu isə XX əsrin əvvəllərində inkişaf yoluna hələ təzəcə qədəm qoymuş musiqi mədəniyyətimizi tamamilə fərqli istiqamətə aparır. Belə ki, keçən əsrin əvvəllərindən etibarən dünyanın müxtəlif guşələrində avanqard bəstəkarlar pleyadası tam qüvvə ilə özlərinin prinsipial yenilənmiş musiqi dili və eyni zamanda bütün mövcud olan musiqi janrlarına fərqli radikal baxışları ilə musiqi aləmini zəbt etmişdilər. Həmin tendensiyalar XX əsrin 2-ci yarısında Azərbaycan musiqisində də özünü biruzə verirdi. Bu çətin və məsuliyyətli vəzifəni Qara Qarayev yerinə yetirmiş, Azərbaycan milli musiqi ənənələrini Avropa ənənələri ilə sintez etmiş və müasir Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoymuşdur. Keçən əsrin 60-cı illərində Qara Qarayev vasitəsilə əldə olunmuş bu nailiyyətlər bəstəkarlıq sahəsində sanki yeni pəncərələr açdı və sözsüz ki, həlledici rol oynadı.

35 illik müəllimlik fəaliyyəti dövründə 70-ə yaxın bəstəkarı yetişdirmiş Qara Qarayev hər bir tələbəyə fərdi yanaşma nümayiş etdirmiş, onların daxili potensialının, habelə, özünəməxsusluqlarının ortaya çıxarılmasına önəm vermişdir. Əlbəttə, bu proseslər birbaşa ənənəvi forma və quruluşların, sistemlərin öyrənilməsi və tam qavranılması, daha sonra isə özünəməxsus şəkildə musiqidə "əks olunması" ilə müşayiət olunmalı idi. Qarayev ustalığı da məhz burada idi - ənənə və müasirlik. Onun tələbələri arasında R.Hacıyev, O. Zülfüqarov, H. Xanməmmədov, A.Məlikov, X.Mirzəzadə, V.Adıgözəlov, T.Bakıxanov, F.Qarayev, F. Əlizadə, A.Cəfərova, L.Vaynşteyn və s. digər bəstəkarları qeyd etmək olar. Qarayev böyük pedaqoq idi. Onun pedaqoji ənənələrini, habelə, formalaşdırmış olduğu meyarı "daşımaq" və ötürmək şübhəsiz ki, heç də asan deyildir. Lakin bəstəkarın tələbələri onun ənənələrinin layiqli davamçıları kimi musiqi mədəniyyətimizin inkişafında mühüm rol oynamışlar.

Bəstəkarlıq kafedrasında çalışmış və gənc mütəxəssislərin yetişdirilməsində mühüm əmək sərf etmiş sənətkarlar arasında Cövdət Hacıyevi də qeyd etmək gərəkdir. Uzun illər ərzində bu kafedrada fəaliyyət göstərmiş C. Hacıyev 20-yə yaxın bəstəkarın yetişdirilməsi və formalaşmasında əvəzsiz rol oynamışdır. Bəstəkarın metodoloji prinsipləri özünəməxsusluğu ilə seçilirdi. Hacıyev ona həvalə edilmiş gənc musiqiçilərin fərdi yaradıcı meyllərinin ortaya çıxarılması, dünya musiqisinin ən öncül nümunələrinin qavranılması və əsas etibarilə Azərbaycan xalqının folklorunun musiqi obrazlılığı və inkişaf prinsipi baxımından əsas götürülməsini üstün tuturdu. Təsadüfi deyil ki, Azərbaycan xalq musiqisinə, arxetipik ənənələrə qayıdışın yaradıcı istiqamət kimi əks olunduğu istedadlı və "öz" yolunu müəyyənləşdirmiş bəstəkarlar onun tələbələri olmuşlar. Bəstəkarın tələbələri arasında N.Məmmədov, X.Cəfərov, R.Mirişli, R.İbrahimov, O.Kazımov, D.Dadaşov, A.Əlizadə və s. başqalarını göstərmək olar.

---

[1] Э. Г. Абасова, Л. В. Карагичева, К. К. Сафар-алиева – Азербайджанская Государственная Консерватория имени Узеира Гаджибекова - 1921*1971. Баку, Азернешр, 1972, стр. 72.

[2] Э. Г. Абасова, Л. В. Карагичева, К. К. Сафар-алиева – Азербайджанская Государственная Консерватория имени Узеира Гаджибекова - 1921*1971. Баку, Азернешр, 1972, стр. 72.

Bəstəkarlıq kafedrasının tarixi səhifələrini vərəqləyərəkən biz, 100 il ərzində kafedranın necə böyük yol keçdiyini və burada hansı mühüm şəxsiyyətlərin yetişdiyini, o cümlədən, gələcək nəsillərin formalaşmasında əvəzsiz rolunu aydın müşahidə edə bilərik. Burada Üzeyir bəydən gələn və təməlləri möhkəm qoyulmuş ənənələr Qara Qarayev, Cövdət Hacıyev, Arif Məlikov, Xəyyam Mirzəzadə, Aqşin Əlizadə, Fərəc Qarayev, İsmayıl Hacıbəyov, Aydın Əzimov və s. başqaları tərəfindən qorunub saxlanılmış və indi də uğurla davam etdirilməkdədir.

## ƏDƏBİYYAT


1) Zemfira Səfərova - Azərbaycan musiqi tarixi. İkinci cild. Bakı. "Elm", 2017, 584 səh.
2) Э. Г. Абасова, Л. В. Карагичева, К. К. Сафар-алиева – Азербайджанская Государственная Консерватория имени Узеира Гаджибекова - 1921*1971. Баку, Азернешр, 1972.


## 100th anniversary of BMA: historical pages of the composing department

*Summary: The article is dedicated to the history of the Baku Music Academy, which celebrates its 100th anniversary this year. Taking a short trip to historical stages of the establishment of the Azerbaijan State Conservatory, highlighting some aspects of the history of the composition department, emphasizes the role of Gara Garayev, who is actually a founder of the contemporary Azerbaijani school of composition and other important figures.*

***Keywords:** Uzeyir Hajibeyli, composer, conservatory, Gara Garayev, composition, school*

## 100-летие БМА: страницы истории кафедры композиции ...

*Предлагаемая вниманию статья обращена к истории Бакинской Музыкальной Академии, которая в этом году отмечает 100-летний юбилей. В статье приводятся некоторые вехи создания Азербайджанской государственной консерватории, освещаются определенные аспекты истории кафедры композиции, отмечается важная роль основателя современной композиторской школы Кара Караева и других ярких представителей кафедры композиции.*

***Ключевые слова:** Узеир Гаджибейли, композитор, консерватория, Кара Караев, композиция, школа*

Elmi rəhbər: BMA-nın professoru, sənətşünaslıq üzrə elmlər doktoru ***Gülzar Mahmudova***